# Məhərrəm ayı başlanır

Hicri-qəməri tarixi ilə 1437-ci ilin ilk ayı olan məhərrəm ayı 14 oktyabr 2015-ci ildən başlanır.

Məhərrəm ayı islam tarixində dəhşətli Kərbəla faciəsinin baş verdiyi ay kimi hər il xüsusi qeyd olunur. Hər il Hicri tarixinin məhərrəm ayında yad edilən Kərbəla hadisəsinin tarixi ermaızın VII əsrinə təsadüf edir.

680-ci ildə Kufə şəhərində əməvi sülaləsinə qarşı üsyana qalxan kufəlilər Həzrət Əlinin kiçik oğlu Hüseyndən yardım istəyirlər. Onlar İmam Hüseyndən Kufəyə gəlib atasının düşməni olan hakimiyyətdəki Əməvilərə qarşı üsyana qalxanlara mənəvi dəstək olmasını xahiş edirlər. İmam Hüseynin Kufəyə daxil olmasının üsyançılara böyük ruh yüksəkliyi verəcəyini başa düşən hakimiyyət onun qarşısını almaq üçün müxtəlif tədbirlər görsə də İmam Hüseyn Kufəyə getmək fikrindən əl çəkmir. O, 72 nəfərlik kiçik bir dəstə ilə Kufəyə yollanır. İmam Hüseyn dəstəsi ilə Mərva düzündən keçəndə (oktyabr 680-ci il) Yezidin göndərdiyi 4 min nəfərlik qoşun onları mühasirəyə alır və məhərrəm ayının 10-cu gündə dəstəni bütünlüklə qılıncdan keçirirlər. İmam Hüseyn də şəhid olur. Kərbəla sözü də sonradan bu hadisəyə görə yaranır. Mənası Kərb, yəni hüzn və bəla sözündən ibarətdir.

Müsəlmanlar indiyə qədər bu hadisəyə, yəni İmam Hüseynin və onun yaxınlarının öldürülməsinə yas saxlayır, bununla əlaqədar müəyyən ayinləri icra edirlər.

**«Qəbələ».**

# "Qəbələ"–"Qarabağ"– 2:1

"Qəbələ" oktyabrın 11-də yoxlama oyunu keçirib. "Qırmızı-qaralar" milli komandaların qarşılaşmaları ilə əlaqədar Topaz Premyer Liqasında yaranan fasilə dövründə "Qarabağ"la matçda qüvvəsini sınayıb. Qəbələ şəhər stadionunda keçirilən görüşə hər iki komanda yığma üzvləri olmadan çıxıb. Bu səbəbdən Rəşad Sadiqov, Ruslan Abışov, Arif Daşdəmirov, Məhəmməd Mirzəbəyov, Elvin Camalov, Sergey Zenyov və Ermin Zets "Qəbələ"nin formasını geyinməyib.

Roman Qriqorçuk bu matçda aşağıdakı "11-liy"ə şans verib: Dmitri Bezotosnı, Ürfan Abbasov, Vojislav Stankoviç, Rikardinyo, Vitali Vernidub, Derlis Meza Kolli, Fakundo Pereyra, Aleksey Qay, Dodo, Aleksey Antonov, Vüqar Nadirov. Matçın gedişində qapıçılar Andrey Popoviçlə David Pietrzkieviç, həmçinin Murad Musayev, Samir Zərgərov, Qismət Alıyev, Vadim Abdullayev və Vaqif Cavadov meydana daxil olub.

Avropa Liqasının qrup mərhələsində çıxış edən komandaların oyununda bütün qollar birinci hissədə vurulub. Qarşılaşmada hesabı "Qəbələ" açıb. Antonov komandamızın hücumunu qolla tamamlayıb. Qonaqlar Dani Kintananın qolu ilə hesabda tarazlıq yaratmağa nail olub. Lakin az keçməmiş Fakundo Pereyra "qırmızı-qaralar"a qələbə qazandıran qola imza atıb. Fasilədən sonra hər iki komandanın heyətində dəyişikliklə olsa da, qarşılaşmanın nəticəsi dəyişməyib – 2:1.

Xatırladaq ki, "Qəbələ" Premyer Liqanın I turunun "Qarabağ"la matçını da evdə keçirmişdi. Həmin görüşdə qalib müəyyənləşməmişdi–2:2.

# Bəxşiş

Yaşlı adam gəncin cibinə nə isə qoyub: "Allah səndən razı olsun, oğlum! Bu qocanı o qədər sevindirdin ki, sanki yenidən doğuldum. Bu kiçicik hədiyyəni qəbul etsən lap sevinərəm, dedi".

Gənc adam etdiyi yaxşılığın yüksək səviyyədə qarşılanacağını gözləyirdi. Yolun kənarında ağlayan dörd-beş yaşlı uşağın azdığını öyrənmiş və onun yaşadığı məhəllənin yerini soruşaraq taksi ilə evlərinə gətirmişdi.

Lakin axtardığı evi tapanda böyük xəyal qırıqlığına uğradı. Yol uzunu gözünün önündə canlandırdığı hovuzlu villa görmə xəyalları bir anda puç olmuşdu. Üstəlik qapını da azyaşlı uşağın nimdaş geyimli babası açmışdı. Nəvəsini bağrına basıb gənc oğlanın cibinə bir neçə «qəpik quruş» qoymuşdu.

Söhbət əsnasında uşağın ata-anasının avtomobil qəzasında vəfat etdiyini öyrənmiş və ağlayaraq nəvəsini bağrına basmış qocanın dalğınlığından istifadə edərək cibindəkiləri əli ilə yoxlamışdı. Beş-altı «qəpik quruş» düşmüşdü payına.

Evə baxanda yaşlı adamın kasıb olduğu məlum idi. Amma, ən azından taksi pulunu verməli idi. "İnsaf da yaxşı şeydi" deyə düşündü.

Yaxşı hədiyyə ilə evə qayıtmağın xəyalını quran gənc xəsis bir qoca ilə qarşı-qarşıya idi və ona dərsini verməli idi. Yaşlı adamın üzünə dimdik baxaraq cibindəki "qəpik-quruşu" ovcuna aldı və heç baxmadan uşağın ayaqlarının altına ataraq dedi:—«Balaca get bu pula özünə oyuncaq al, bəlkə beləliklə baban səxavətin nə olduğunu öyrənə».

Uşaq əyilib yerdəki pulları yığışdırarkən artıq həyət qapısına çatıb geri çevrilən gəncin gözləri hədəqəsindən çıxacaqdı. Uşaq kiçik ovcundakı parıldayan 5-6 onluq qızıl pulu babasına verirdi.

**Türkcədən çevirən:**
**Vüsal SƏMƏDOV.**

# Bunları bilmək maraqlıdır

Hindistanda insanı elektrik cərəyanı kimi vuran ağac bitir. Ağacda ən yüksək gərginlik günorta, ən az gərginlik isə gecə yarısı olur.

* * *

Mavzoley sözü eramızdan əvvəl Kiçik Asiyada yaşamış Qalikarnas padşahı Matsolun adındandır. O, yaşadığı dövrdə böyük bir sərdabə tikdiribmiş.

* * *

"Vağzal" sözü XVII əsrdə London yaxınlığındakı Ceyn Foks adlı bir qadının malikanəsi olan parkın və əyləncə yerinin adından götürülmüşdür.

* * *

"Vulkan" sözü Tirren dənizində kiçik bir adanın—Urka adasının adından götürülmüşdür ki, bu da "od" deməkdir.

* * *

Andorra yeganə ölkədir ki, orada poçtyollama pulsuzdur.

* * *

Əlcəzairdə qəribə bir göl var. Gölün qəribəliyi ondadır ki, onun suyundan avtoqələmə doldurub mürəkkəb kimi istifadə edərək yazı yazmaq olar.

* * *

Yeni Qvineyanın əhalisi təqribən 700 dildə danışır. Bu isə ümumilikdə dünya dillərinin 15 faizini təşkil edir.

* * *

Birinci Pyotrun boyu təxminən 2 metr 13 santimetr olmuşdur.

* * *

Canlı aləm içərisində insan yeganə məxluqdur ki, planetin hər yerində yaşayır.

* * *

Birləşmiş Millətlər Təşkilatında cəmi 6 rəsmi dil var. İngilis, Fransız, Ərəb, Çin, Rus və İspan dilləri.

**Topladı: Aslan CƏLİLOV.**

# Belə də olur

Bir gün İngiltərənin baş naziri Çörçil taksiya minib radioda çıxış etməyə gəlir. Radiostudiyaya çatanda taksi sürücüsündən xahiş edir ki, yarım saat onu gözləsin. Onu tanımayan taksi sürücüsü deyir: "Bağışlayın, mən evə getməliyəm. Cənab Çörçilin radioda çıxışına qulaq asacağam". Çörçil sürücüyə 10 funt-sterling verir. Sürücü pulun çoxluğunu görüb deyir: "Çörçil qələt edir. Sizi burda gözləyirəm".


## Bütün iş adamlarına, vətəndaşlara!

### "Qəbələ" qəzetinin reklam xidməti sizinlədir

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və xoş duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da qəzet sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.


## ELAN

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, 9 saylı Ərazi İdarəsi tərəfindən **Zamanov Arzu Qurban oğlunun** adına verilmiş 14 yanvar 2015-ci il tarixli Seriya RX № 0562626, qeydiyyat nömrəsi 1914010312 olan **Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.